# Qarabağa Böyük Qayıdışın irimiqyaslı startı Ağdamda verildi



***Hazırda ölkəmizin qarşısında duran əsas vəzifələrdən biri ötən ilin payızında işğalçı Ermənistanla aparılan 44 günlük Vətən müharibəsində mənfur düşməndən xilas edilən ərazilərə böyük qayıdışı təmin etməkdən ibarətdir. Qarabağ savaşı başa çatan ilk günlərdən işğaldan azad olunmuş ərazilərdə kommunikasiyaların bərpası və zəruri infrastrukturun yaradılması tədbirlərinə başlanıb.***

Ötən yarım ildə Prezident İlham Əliyevin rəhbərliyi və bilavasitə nəzarəti ilə Qarabağın işğaldan azad olunmuş ərazilərində bir-birini tamamlayan irimiqyaslı layihələr uğurla gerçəkləşdirilir. Dövlət başçısı bu layihələrə start vermək üçün ardıcıl olaraq həmin bölgələrə gedir, erməni vandallarının 30 il ərzində talan edib xarabazara çevirdiyi yaşayış məntəqələrində görülən işlərlə yerindəcə tanış olur. Bu səfərlərdən sonra ölkə rəhbəri bərpa prosesinin genişlənməsi və sürətlənməsi üçün lazımi göstərişlər verir, əlavə tədbirlər müəyyən edir.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan hazırlıq işləri əsaslıdır, tezliklə reallaşdırılacaq irimiqyaslı quruculuq layihələrinin əhatə dairəsi isə kifayət qədər genişdir. Hazırda bu ərazilərdə minalardan təmizləmə işləri davam etdirilir, zəruri yol-nəqliyyat, enerji şəbəkəsi yaradılır, sosial və iqtisadi infrastrukturlar sürətlə bərpa edilir. Ərazilərin bərpası, quruculuq işləri ən müasir texnologiyalar əsasında həyata keçirilir.

Prezident İlham Əliyevin mayın 28-də– Respublika Günündə Ağdama səfər etməsi böyük rəmzi məna daşıyırdı. Bununla çağdaş dövlətçiliyimizin bərpa edildiyi günün 103-cü ildönümündə Azərbaycan Prezidenti bütün dünyaya göstərdi ki, xalqımız Azərbaycan Xalq Cümhüriyyətinin ən böyük əmanəti olan Vətənimizin hər qarışını yurdsevərliklə yağılardan qoruduğu, son 30 ildə isə üşləşdiyi məkrli işğaldan azad etdiyi kimi, onu daha möhtəşəm tikinti-quruculuq işləri aparmaqla yenidən gülüstana çevirməyə də qadirdir. Elə bu məramla da ümumxalq bayramı günündə işğaldan azad olunmuş Qarabağımızın gözəl bir guşəsi olan Ağdamda tarixi anlar yaşandı, bu torpağın bərpası, ona həyatın qayıtması üçün təməllər atıldı.

Səfər zamanı cənab Prezidentin iştirakı ilə Ağdam şəhərinin baş planının geniş təqdimatı oldu. Beləliklə, Qarabağa böyük qayıdışın irimiqyaslı startı Ağdamda verildi. Kompleks layihədən göründüyü kimi, Ağdamı çox gözəl gələcək, böyük inkişaf, coşğulu həyat gözləyir. Dövlətimizin başçısının dediyi kimi, Ağdam şəhəri bütün dünya üçün nümunə olacaq. Ağdamda bütün tarixi, dini, mədəni abidələr də tezliklə bərpa olunacaq. Ağdamı Qafqazın Xirosiması adlandırırlar. Çünki şəhər tamamilə dağıdılıb. Cənab Prezidentin qeyd etdiyi kimi, bunu bizim qonşumuz olan, bizim çörəyimizi yeyən, bizim torpağımızda özünə yuva salan, ancaq bizə qarşı daim nifrət hissi ilə yaşayan, nankorluq edən ermənilər törədiblər.

Bütün işğal olunmuş ərazilərdə olduğu kimi, Ağdamda da bizim bütün maddi-mənəvi sərvətimiz məqsədyönlü şəkildə dağıdılıb, talan edilib. Tarixi-dini abidələrimiz sökülüb. Ermənilərin məqsədi bu idi ki, Azərbaycan xalqının mədəni irsini bu torpaqlardan silsinlər. Ancaq çox yanıldılar. Onlar dərk edə bilmədilər ki, bizim üçün, xalqımız üçün torpaqlarımızın işğaldan azad edilməsi ümummilli məsələdir və heç vaxt biz bu vəziyyətlə barışmarıq.

Müzəffər Ali Baş Komandanızımın rəhbərliyi ilə rəşadətli ordumuz Qarabağımızı düşmən işğalından azad etdi. İkinci Qarabağ müharibəsi bir daha Azərbaycan xalqının əzmini, iradəsini sübut etdi, bütün dünyaya göstərdi və bu şanlı qələbə tarixdə əbədi qalacaq. Bundan sonra Azərbaycan dövləti qalib dövlət kimi inkişaf edəcək. Azərbaycan xalqı müzəffər xalq kimi yaşayacaq, qürur hissi ilə yaşayacaq. Bütün Qarabağ torpağımız dirçələcək, cənnətə çevriləcək.

***Fatma YILDIRIM,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti 2021.- 1 iyun.- S.4.